İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________

Oxu tarixi: ______________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# QIRIQ QANADLAR

CÜBRAN XƏLİL CÜBRAN

Ərəb dilindən tərcümə:

Prof. Əhməd Sami Elaydi

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Redaktorlar: | Vaqif SULTANLI<br>Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Cildin dizayneri: | Bayram QAFAROV |

الأجنحة المتكسرة
جبران خليل جبران

**Cübran Xəlil Cübran**
**QIRIQ QANADLAR**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2024, 120 səh.

**© Cübran Xəlil Cübran / 1912**
**© Parlaq İmzalar MMC / 2024**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 152

ISBN 9952580853

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
2024

**Cübran Xəlil Cübran** 1883-cü il yanvarın 6-da Livanın Bşərri şəhərində anadan olub. İbtidai təhsilini bu şəhərdə alan Cübran 1895-ci ildə ailəsi ilə birlikdə Amerikaya, Boston şəhərinə köçüb. 1898-ci ildə Cübran təhsilini davam etdirmək məqsədilə Livana qayıdıb və "əl-Hikmət" adlı katolik məktəbini bitirib.
Cübranın ilk mətbu əsəri "Mühacir" qəzetində dərc olunmuş "Yenilikçi yazıçı" sərlövhəli məqaləsidir. Daha sonra onun iki hekayələr toplusu – "Çəmənlər gəlinləri" və "Üsyankar ruhlar" kitabları çapdan çıxıb. Şairin şah əsəri sayılan "Peyğəmbər" ilk dəfə 1923-cü ildə ingilis dilində çap olunub. "Peyğəmbər" indiyədək 100-dən çox dilə çevrilib. Cübran Xəlil Cübran 1931-ci il aprelin 10-da Nyu-Yorkda vəfat edib.

**Əhməd Sami Elaydi** 1979-cu il aprelin 6-da Misir Ərəb Respublikasının Qahirə şəhərində anadan olub. 2006-cı ildə Qahirədəki Eyn əş-Şəms Universitetinin Ədəbiyyat fakültəsinin Türk dili və ədəbiyyatı bölümünü bitirib. Bir müddət təhsil aldığı universitetdə müəllim işləyib. Daha sonra Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasının doktoranturasını bitirib. Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət attaşesi, Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin direktoru vəzifəsində çalışıb.
Əhməd Sami Elaydi "Qaçaq Nəbi" dastanını, Kamal Abdullanın "Yarımçıq əlyazma", Vaqif Sultanlının "İnsan dənizi" romanlarını, "Müasir Azərbaycan hekayələri" antologiyasını ərəb dilinə çevirərək Qahirədə nəşr etdirib. Nobel mükafatı laureatı Nəcib Məhfuzun "Liderin qətl günü" romanını Azərbaycan dilinə tərcümə edib.

# Mündəricat

Cübran Xəlil Cübranın ədəbi dünyası 11

Proloq 17
Lal kədər 21
Taleyin əli 25
Məbədin qapısında 30
Ağ alov 36
Fırtına 40
Alov gölü 55
Ölüm taxtının önündə 74
İştar ilə Məsih arasında 91
Fədakarlıq 98
Xilaskar 110

Gözünü qırpmadan günəşə baxan,
titrəməyən barmaqları ilə alovu tutub saxlayan,
korların hay-küyü və qışqırıqları arxasından
Mütləq Ruhun nəğməsini dinləyənə...
Bu kitabı M. E. H.-yə[1] ithaf edirəm.

*Cübran Xəlil Cübran*

1. Burada Cübran Xəlil Cübranın ən yaxın dostu və hamisi sayılan Meri Elizabet Haskell (1873-1964) nəzərdə tutulur. – Red.

# Cübran Xəlil Cübranın ədəbi dünyası

Azərbaycan oxucusuna təqdim olunan “Qırıq qanadlar” romanı müasir ərəb ədəbiyyatının formalaşma və inkişaf prosesində müstəsna yer tutan Cübran Xəlil Cübranın ədəbi, estetik və humanist dünyagörüşünü hərtərəfli şəkildə tanıtmaq məqsədi daşıyır. Bu romanın Azərbaycan dilinə tərcüməsi, təkcə məşhur bir ədəbi mətnin başqa bir dilə çevrilməsi deyil, eyni zamanda XIX əsrin sonu XX əsrin əvvəllərində ərəb ədəbiyyatında baş vermiş əsaslı dəyişikliklərin, yeni bədii düşüncə tərzinin və insanmərkəzli ədəbi fəlsəfənin Azərbaycan oxucusuna elmi kontekstdə təqdim olunmasıdır. Cübran Xəlil Cübran yaradıcılığı bu baxımdan regional çərçivələri aşaraq ümumbəşəri mahiyyət daşıyan bir ədəbi hadisə kimi qiymətləndirilə bilər.

Cübran Xəlil Cübran 1883-cü ildə Livanın şimalında yerləşən Bşərri şəhərində maddi baxımdan kasıb bir ailədə dünyaya gəlmişdir. Onun həyat yolu erkən yaşlardan

etibarən miqrasiya, mədəni keçid və intellektual axtarışlarla səciyyələnmişdir. On üç yaşında Boston şəhərinə köçməsi onun dünyagörüşünün formalaşmasında əsaslı rol oynamışdır. Şərq mədəni-mənəvi mühiti ilə Qərb fəlsəfi-estetik düşüncəsinin qovuşması nəticəsində Cübran nə tam şəkildə Şərqə, nə də bütünlüklə Qərbə aid olan, lakin hər iki dünyanı dərindən anlayan bir ədəbi şəxsiyyət kimi formalaşmışdır. Bu xüsusiyyət onun əsərlərinə universal oxunaqlılıq qazandırmışdır.

Müasir ərəb ədəbiyyatı Cübran Xəlil Cübranın yaradıcılığından ciddi şəkildə təsirlənmişdir. O, klassik bəlağət və ritorika çərçivəsindən kənara çıxaraq yeni bir bədii-bəyan məktəbinin əsasını qoymuşdur. Xüsusilə nəsr-poetik yazı sahəsində göstərdiyi yeniliklər onu ərəb ədəbi intibahının (Nahda dövrünün) əsas simalarından birinə çevirmişdir. Cübran dilə yalnız ifadə vasitəsi kimi deyil, insanın daxili aləmini, hiss və düşüncə qatlarını açan estetik məkan kimi yanaşmışdır. Bu yanaşma onun yaradıcılığını həm forma, həm də məzmun baxımından yenilikçi etmişdir.

Cübranın ədəbi təcrübəsi bir neçə əsas istiqamətdə formalaşmışdır. İlk növbədə, onun yaradıcılığı üslub müxtəlifliyi ilə seçilir. O, fikirlərini ifadə edərkən yalnız bir ədəbi formaya bağlı qalmamış, qısa hekayə, didaktik mətn, aforizm, fəlsəfi təfəkkürə əsaslanan nəsr və poetik nəsr kimi müxtəlif üslublardan istifadə etmişdir. Bu üslub zənginliyi ona insan təcrübəsini həm hadisə, həm simvol, həm də daxili düşüncə səviyyəsində təqdim etməyə imkan vermişdir.

İkinci əsas xüsusiyyət Cübranın romantik dünyagörüşü ilə bağlıdır. Onun romantizmi sentimental hissiyyatla məhdudlaşmır, əksinə, maddiyyata, sərt sosial-iqtisadi münasibətlərə və kapitalist düşüncə tərzinə qarşı yönəlmiş baxış tərzi kimi çıxış edir. Cübran bu istiqamətdə ərəb ədəbiyyatında romantik cərəyanın öncüllərindən sayılır. Onun romantizmi insanın daxili azadlığını, sevgi və mənəvi dəyərlərin üstünlüyünü müdafiə edir və insan ruhunun sıxışdırılmasına qarşı etiraz xarakteri daşıyır.

Üçüncü mühüm cəhət simvolizmdir. Cübran yaradıcılığında birbaşa ifadə əvəzinə eyham, rəmz və metafora üstünlük vermişdir. Onun əsərlərində mifoloji elementlər, xəyali obrazlar və simvolika geniş yer tutur. Bu simvolizm daxili psixoloji vəziyyətlərin və insan ruhunun dərin qatlarının ifadəsi üçün mühüm vasitəyə çevrilmişdir. Bunun sayəsində Cübranın mətnləri oxucunu passiv qavrayışdan çıxararaq fəal düşüncə və təhlilə sövq edir.

Dördüncü əsas istiqamət isə humanizmdir. Cübran yaradıcılığının mərkəzində insan və insani dəyərlər dayanır. O, insanı sosial, dini və maddi asılılıq formalarının fövqündə görür və ədəbiyyatı bu ali dəyərin ifadə vasitəsi kimi qəbul edir. Bu humanist baxış onu XX əsrin əvvəllərində formalaşmış ərəb mühacirət ədəbi hərəkatının – "Qələm birliyi"nin aparıcı nümayəndələrindən birinə çevirmişdir.

Cübran Xəlil Cübranın müəlliflik fəaliyyəti də geniş və çoxşaxəlidir. O, 1905-ci ildə ərəb dilində yazdığı "Musiqi" əsəri ilə yaradıcılığa başlamış, sonrakı illərdə həm ərəb,

həm də ingilis dillərində məhsuldar şəkildə işləmişdir. Onun ədəbi irsi ümumilikdə on səkkiz kitabdan ibarətdir – bu əsərlərin səkkizi ərəb, onu isə ingilis dilində qələmə alınmışdır. Xüsusilə "Peyğəmbər" əsəri dünya miqyasında geniş yayılmış, təxminən yüz on dilə tərcümə edilmişdir. Bundan əlavə, Cübran on bir dram əsərinin də müəllifidir. Bu dramların altısı ingilis, beşi isə ərəb dilində yazılmış, onların bir qismi müəllifin vəfatından sonra nəşr olunmuşdur.

Şeir sahəsində də Cübran mühüm yeniliklər etmişdir. O, mindən artıq şeir yazmış və klassik poeziyaya hakim olan "vahid mövzu" (qəsd) prinsipindən imtina etmişdir. Onun poeziyasında həyat bütöv bir təcrübə kimi təqdim olunur; şeir daxili dinamika, emosional hərəkət və simvolik əlaqələr üzərində qurulur. Cübran poetik dili mətnin öz daxili strukturlarından güc alan estetik sistemə çevirmiş, simvolizmi güclü şəkildə tətbiq edərək şeirin bədii bütövlüyünü qorumuşdur.

Cübran Xəlil Cübranın yaradıcılıq dünyasını tam anlamaq üçün onun təsviri sənət sahəsindəki fəaliyyəti də mühüm əhəmiyyət daşıyır. O, müxtəlif rəssamlıq məktəbləri ilə tanış olmuş, çoxsaylı sərgiləri ziyarət etmiş, ABŞ-də rəssamlıq təhsili almış, daha sonra Fransada bu sahədə biliklərini dərinləşdirmişdir. Nəticədə o, özünəməxsus bədii üslub formalaşdırmış və çoxsaylı rəsmlər yaratmışdır. Bu rəsmlərin əksəriyyətində insan bədəni, xüsusilə çılpaq bədən təsvir olunur. Lakin bu çılpaqlıq erotik deyil, dini təsviri sənətdəki mələk fiqurlarını

xatırladan metafizik və simvolik məna daşıyır. Cübran bu yanaşmasını həyatın "çılpaq həqiqəti" anlayışı ilə izah etmişdir. Təxminən yeddi yüz rəsm əsəri yaratmış Cübranın işlərinin böyük hissəsi ölümündən sonra Livana qaytarılmış, onlardan dörd yüz qırxı hazırda Bşərridə yerləşən Cübran Xəlil Cübran Muzeyində qorunur.

Cübranın ətrafında bir sıra livanlı və suriyalı yazıçı və şairlər toplaşmışdır. Mixail Nüaymə, Əbdül Məsih Həddad və Nəsib Arida kimi ədiblərlə birlikdə o, "Qələm birliyi" adlı ədəbi cərəyanın əsasını qoymuşdur. Bu birlik ərəb ədəbiyyatını durğunluqdan xilas etməyi, onu yeniləşdirməyi və insanın daxili aləminə yönəltməyi qarşısına məqsəd qoymuşdur. 1920-ci ildə bu birliyin rəhbəri kimi Cübran Xəlil Cübran seçilmişdir ki, bu da onun ədəbi və mənəvi nüfuzunun göstəricisidir.

Məhz bu çoxşaxəli ədəbi, poetik və bədii təcrübə "Qırıq qanadlar" romanının estetik və fəlsəfi əsasını təşkil edir. Roman hadisə nəqlindən daha çox, dilin poetik imkanları, simvolik struktur və insan ruhunun estetik ifadəsi üzərində qurulmuşdur. Burada forma ilə məzmun ayrılmazdır; nəsr poetik struktura yaxınlaşır; dil düşüncəni və hissi eyni anda daşıyır. Əsərin bədii dəyəri onun süjetində deyil, qurduğu estetik məkan və ideya dərinliyində cəmlənir.

"Qırıq qanadlar" romanının Azərbaycan dilinə tərcüməsi ərəb və Azərbaycan ədəbiyyatları arasında mədəni və estetik əlaqələrin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Hər iki ədəbi ənənədə roman-

tizm, humanizm, fərdin daxili azadlığı və mənəvi axtarış kimi mövzular mühüm yer tutur. Cübranın bədii dili və fəlsəfi düşüncə tərzi Azərbaycan oxucusuna yad deyil, əksinə, tanış sualları yeni estetik müstəvidə təqdim edir və qarşılıqlı ədəbi dialoqa zəmin yaradır.

Bu mənada əsər Cübran Xəlil Cübranın ədəbi irsini Azərbaycan oxucusuna təqdim etməyi, "Qırıq qanadlar" romanını isə həmin irsin estetik ifadəsi kimi dəyərləndirməyi qarşısına məqsəd qoyur.

*Prof. Əhməd Sami Elaydi*

# Proloq

On səkkiz yaşım olanda sevgi sehrli şüaları ilə gözlərimi açdı və ilk dəfə ruhuma alovlu barmaqları ilə toxundu. Səlma Kəramə ruhumu gözəllikləri ilə oyadan ilk qadın idi; o məni ali duyğuların cənnətinə doğru apardı – orada günlər yuxular kimi axar, gecələr isə toylartək sona yetərdi.

Səlma Kəramə gözəlliyi ilə mənə gözəlliyə sitayişi öyrətdi, məhəbbətin gizlinlərini mərhəmətli rəftarı ilə mənə açdı və mənim qulaqlarıma mənəvi həyatın şeirindən ilk misranı oxuyan da elə o oldu.

Hansı gənc gəncliyinin o ilk qızını xatırlamaz ki, o öz zərifliyi ilə gəncliyin qəflətini heybətli bir oyanışa çevirmiş, şirinliyi ilə yaralamış, füsunkarlığı ilə onu məhv etmişdir? Hansımız o qəribə saatdan ötrü həsrət çəkib əriməmişik? Həmin anda qəfil ayılıb bütün varlığımızın alt-üst olduğunu, dəyişdiyini görmüşük; həmin anda ruhumuzun dərinlikləri genişlənmiş, daxilimiz isə gizli saxlamağın bütün məşəqqətlərinə, göz yaşı, həsrət və yuxusuzluğa baxmayaraq, xoş hisslərlə dolmuşdur.